| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu, adı və kreditlərin sayı** | AZH150 Azərbaycan tarixi, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin payız semestri |
| | **Fənnitədrisedənmüəllim (lər)** | T.e.d., prof.Habil Məmmədov |
| | **E-mail:** | habildos@mail.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/ Cədvəl** | |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Azərbaycan tarixi. Red. Mehman Abdullayaev. Bakı, Bakı Universiteti, 2014.<br>2. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) red. prof. Süleyman Əliyarlı. Bakı, 2009.<br>3. XX əsr Azərbaycan tarixi, II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev.Bakı, 2004.<br>4. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z.Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>5. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). İradə Nuriyeva. Bakı: Elm və təhsil, 2019.<br>6. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Həsən Qəniyev. Bakı, “Elm və Təhsil” 2019.<br><br>**Əlavə dərsliklər və elmi monoqrafiyalar:**<br>1. Azərbaycan tarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007.<br>2. Solmaz Qaşqay. Manna dövləti. Bakı, 1993<br>3. Fəridə Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, Bakı,1993 (IV fəsil, §1-2).<br>4. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə,Bakı ,2004 ( III fəsil, § 2, §8;V fəsil § 2).<br>5. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993 (I fəsil, II fəsil s.33-35, s.46-49).<br>6. Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan . Bakı, Xəzər Universitəsi, 2000.<br>7. C.Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) Bakı, 2015. | |
| **Kursun vebsaytı** | **Yoxdur** | |
| **Kursun təsviri və məqsədləri** | Kursun təsviri: Bu fənn Azərbaycanın ta qədim dövrlərdən günümüzədək baş vermiş prosesləri,tarixi faktların səbəb-nəticə əlaqələrini, dövlətçilik ənənələrinin yaranması,<br>Formalaşması və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | |

<table>
<tr><td></td><td colspan="3">Kursun məqsədləri: Son illər konseptual dəyişmələr baş verdiyindən bir sıra məsələlərə baxış əvvəlkindən kəskin şəkildə fərqlənir. Bəzi tarixi hadisələr yeni faktlarla zənginləşib, müəyyən dövrlərdəki boşluqlar doldurulmaqdadır. Tədris proqramının tərtibi zamanı bütün bu amillər nəzərə alınmış, tarixin qaranlıq səhifələrinə diqqət artırılmışdır. Azərbaycan tarixi haqqında bitkin, dolğun və obyektiv təsəvvür yaranacaq;<br>Azərbaycanın qədim dünya sivilizasiyasının ocaqlarından biri və Şərq dünyasının ayrılmaz hissəsi olmağı haqda məlumatları daha da genişlənəcək;<br>Azərbaycan etnosunun təkraredilməz və avtoxton olduğuna dair geniş təsəvvür yaranacaq;<br>Vətən tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə sevgi və hörmət hissini daha da artıracaq və vətənpərvərlik ruhunu daha da yüksəldəcəkdir.</td></tr>
<tr><td>Tədrisin(öyrənmənin) nəticələri</td><td colspan="3">Fənn üzrə təlim nəticələri (FTN)<br>“Azərbaycan tarixi” kursunu başa vurmuş tələbə:<br>FTN 1. Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindan, ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır;<br>FIN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkkülü şəraitini, siyasi, beynalxalq amilləri təhlil etməyi bacarır;<br>FTN 3. Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi va mədəni amillərin rolunu təhlil etməyi bacarır: azərbaycançılıq ideologiyasını dərk edir;<br>FTN 4. Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır;<br>FTN 5. Tarixi hadisələrin analizini, tarixi hadisələrə tənqidi və obyektiv yanaşmanı bacarır.<br>FTN 6. Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri,şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır və qiymətləndirir;<br>FTN 7. Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerinin müəyyənləşdirilməsi.</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktik məsələlərin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr ərzində</td><td>5 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi (quiz)</td><td>Aralıq imtahanı öncəsi<br>Final imtahanı öncəsi</td><td>10 (5+5) bal</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr ərzində</td><td>5 bal</td></tr>
<tr><td>Prezentasiya (Yazı işi – esse)</td><td>Semestr ərzində<br>(10 dekabr son tarix)</td><td>10 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Aktivlik<br>Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda iştirak</td></tr>
</table>

| | |
|---|---|
| | etmək.<br>**Kurs işi, layihə və tapşırıqlar**<br>Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir.<br>Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi tapşırıqlarda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır.<br>**Prezentasiya işinə qaydalar**<br>Tələbələr prezentasiyanı qrup şəklində təqdim etməlidirlər. Hər bir qrup 4-5 tələbədən ibarət olmalıdır. Qrup lideri və ya qrup üzvlərindən biri prezentasiyanın planını prezentasiyanı təqdim edəcəkləri gündən bir həftə öncə müəllimə göndərməlidir. Vaxtında göndərilmədiyi halda hər bir qrup üzvü 5 balı itirəcəkdir. Hər qrupa təqdimat üçün 20 dəqiqə vaxt verilir. Hər bir qrup üzvü öz hissəsini danışmalı və təqdim etməlidir. Qrup prezentasiyasından sonra digər tələbələr öz sualını, ballarını və fikirlərini söyləyə bilərlər. Son olaraq, müəllim suallarını soruşacaq və prezentasiya haqqında fikirlərini deyəcəkdir. Mövzular müəllim tərəfindən verilə bilər və yaxud tələbələr özləri seçə bilərlər.<br><br>**Yazı işinə aid qaydalar**<br>1.İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şirifti 14, interval 1, işin həcmi 3-5 səhifə olmalıdır.<br>2.Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır.<br>3.İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır.<br>4.İş yazılarkən mənbələrə (hər hansı bir tarixi monoqrafiya, əsər) istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.<br>5.Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir.<br>6.İşin titul vərəqi olmalıdır: mövzunun adı, tələbənin adı, soyadı, fakültəsi, işin yerinə yetirildiyi department göstərilməlidir.<br>**Yoxlama işi**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır<br>**İmtahanlar**<br>Aralıq imtahanı 1-15-ci mövzuları əhatə edir.<br>Final imtahanı 17-30-cu müvzuları əhatə edir.<br>Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmırlar.<br>**İmtahan qaydaları**<br>Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürülmə qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbənin qiyməti sıfırlanır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. |

| | |
|---|---|
| | **Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr qadağandır. Online dərsi yalnız müəllim özü başlada bilər, tələbələr Microsoft Teams platfomasında cədvəl üzrə təyin olunmuş dərsi başlada bilməzlər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | **Mövzu № 1. Azərbaycan ərazisində ibtidai icma cəmiyyəti (FTN 1)**<br>Azərbaycan ərazisində ilk insan məskənləri. Ulu icma. Daş dövrü. İlkin daş alətlər. İstehlak təsərrüfatı. Azərbaycan ərazisində ən qədim insan izləri. Azıx adamı. Qəbilə icması. Orta daş dövrü .Ox və kamanın kəşfi. Qobustan qayaüstü rəsmləri. İbtidai əkinçilik və maldarlıq. «Neolit inqilabı». İstehsal təsərrüfatının yaranması: Əkinçilik, maldarlıq, dulusçuluq və toxuculuq və s. Azərbaycanda metal alətlərdən istifadə. Erkən Tunc dövrü. Təsərrüfatın yeni sahələri. Orta tunc dövrü. Sənətkarlığın inkişafı. Son Tunc – Erkən Dəmir dövrü. İbtidai icma quruluşunun dağılması.<br>**Mövzu № 2. Azərbaycan ərazisində qədim dövlətlər. (FTN 1, (FTN 2)**<br>Manna dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti<br>Azərbaycan Midiya və Əhəməni imperiyalarının tərkibində<br>Atropatena dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti<br>Albaniya dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti | Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək) M.Q.Abdullayevin redaktəsi ilə.Bakı, 2015<br><br>[I fəsil , § 1,3,4 s.5-11, 19-30]; |
| 2 | | **Mövzu № 3.Azərbaycan III-VII əsrlərdə**<br>Azərbaycan III-VII əsrlərində **(FTN 2)**<br>**Mövzu № 4.Azərbaycan Xilafətin tərkibində (FTN 3)**<br>İslam dininin yayılması və onun tarixi əhəmiyyəti<br>Ərəb əsarətinə qarşı azadlıq mübarizəsi. Xürrəmilik. Babək.<br>Azərbaycan xalqının yaranması | [II fəsil , § 5 s.30-40]<br>[ II fəsil, § 6 s.40-51]; 2, s. 130- 155; 9 |
| 3 | | **Mövzu № 5. Azərbaycan xalqının etnogenezi (FTN 5)**<br>Azərbaycan xalqın yaranışı prosesinin başlıca mərhələləri. Uzaq keçmişdə Azərbaycanda yaşayan türk toplumları. İlkin orta əsrlərdə Azərbaycan türk etnosunun yayılıb güclənməsi. Azərbaycan xalqının təşəkkülü prosesində islam dininin rolu. Yaranışda Azərbaycan türk dilinin yeri və rolu. Azərbaycan xalqının yaranması.<br>**Mövzu № 6.Azərbaycan IX-XIII əsrin əvvəllərində (FTN 4)**<br>IX-XI əsr Azərbaycan tarixinin başlıcaproblemləri<br>Oğuzlar, onların qurduğu cəmiyyətlər və onların özünəməxsus xüsusiyyətləri. | [ II fəsil , § 7, s. 51-61];<br><br>[III fəsil , § 8-10 s.61-82] |

| | | | |
|---|---|---|---|
| | | Səlcuq türkləri və Azərbaycan.Azərbaycan Atabəylər dövləti.Azərbaycan İntibah mədəniyyəti | |
| 4 | | **Mövzu № 7. Azərbaycan XIII əsrin əvvəlləri – XIV əsrdə (FTN 4)**<br>Azərbaycanda monqol əsarəti. Hülakilər dövləti<br>**Mövzu № 8. Azərbaycan Baharlı və Bayandurlu sülalələrinin hakimiyyəti dövründə (FTN 3)**<br>Azərbaycan Qara Yusif Baharlı və onun varisləri dövründə.<br>Azərbaycan Bayandurlu sülaləsinin hakimiyyəti dövründə.Şirvanşahlar dövləti.Səfəvilərin Ərdəbil hakimliyi.XIII-XV əsrlər Azərbaycan mədəniyyəti | [IV fəsil , § 11-13, s. 94-99, 102-106];<br><br>[IV fəsil , § 14 s.106-110] |
| 5 | | **Mövzu № 9. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə (FTN5 )**<br>Səfəvi dövlətinin yaranmasını şərtləndirən amillər. Qızılbaş ideologiyası.<br>Azərbaycan XVI yüzillikdə. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması. Şah I İsmayıl və Şah I Təhmasib<br>Səfəvi-Osmanlı müharibələri və onun nəticələri.<br>Azərbaycan XVI yüzilliyin sonu - XVII yüzilliyin əvvəllərində.<br>**Mövzu № 10. XVII əsrdə Səfəvi dövlətinin daxili və beynəlxalq vəziyyəti (FTN 5 )**<br>Şah I Abbasın islahatları və onun nəticələri<br>Səfəvi-Osmanlı müharibələri və onun nəticələri<br>XVI-XVII əsrlər Azərbaycan mədəniyyəti | 1, s. 124-129; 2, s. 371-408; 7; 13<br><br>1, s. 146-157; 2, s. 472-495 |
| 6 | | **Mövzu № 11. Azərbaycan XVIII əsrin birinci rübündə (FTN 5 )**<br>XVIII əsrin əvvəllərində Səfəvi dövlətinintənəzzülü<br>Azərbaycantorpaqlarında ictimai və siyasi vəziyyət<br>Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi<br>I Pyotrun Xəzəryanı bölgələri işğal etməsi<br>**Mövzu № 12. Azərbaycan XVIII əsrin ikinci rübündə (FTN 4 )**<br>Şirvan bölgəsinin siyasi və demoqrafikvəziyyəti<br>Nadir şah Əfşar | 1, s. 146-157; 2, s. 472-495 |
| 7 | | **Mövzu 13. Quiz (I)**<br>**Mövzu № 14. Azərbaycan xanlıqları (FTN 4 )**<br>Azərbaycan ərazisində xanlıqların yaranması. Şimali və Cənubi Azərbaycan xanlıqları<br>Azərbaycanın birləşdirilməsi uğrunda mübarizə və onun nəticələri | 1, s. 158-177; 2, s. 508-531; |
| 8 | | **Mövzu 15. Xanlıqların daxili və xarici siyasəti. (FTN 5 )**<br>Qacarın və Zubovun yürüşləri<br>Azərbaycan xanlıqlarının sosial – iqtisadi vəziyyəti. İnzibati-idarə sistemi<br>XVIII əsr Azərbaycan mədəniyyəti | 1, s. 158-177; 2, s. 508-531; |

| | | | |
|---|---|---|---|
| | | **Mövzu 16. ARALIQ imtahanı (1-15-ci mövzular)** | |
| 9 | | **Mövzu 17. Azərbaycan XIX əsrdə(FTN 5 )**<br>XVIII-əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti<br>I Rusiya-Qacar müharibəsi. Gülüstan müqaviləsi<br>Gülüstan müqaviləsindən sonrakı dövrdə Azərbaycan beynəlxalq münasibətlərdə<br>II Rusiya-Qacar müharibəsi. Türkmənçaymüqaviləsi<br>Çarizmin köçürmə siyasətinin mahiyyəti. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda ictimai-siyasi həyat. İqtisadi durum. Müstəmləkə zülmünə qarşı üsyanlar.<br>Şimali Azərbaycan XIX yüzilliyini ikinci yarısında. Kapitalist münasibətlərinin yaranması və inkişafı. Bu dövrdə Rusiya tərəfindən keçirilmiş islahatlara baxış.<br>**Mövzu 18.Azərbaycan XX əsrin əvvəllərində(FTN 5 )**<br>XX əsrin əvvəllərində Azərbaycanda ictimai –siyasi vəziyyət<br>Azərbaycan milli azadlıq hərəkatının II dövrü və onun əsas xüsusiyyətləri<br>1905-1906-cı illərdə erməni–müsəlman münaqişəsi<br>Azərbaycanda siyasi partiyaların və ictimai hərəkatların yaranması<br>Azərbaycan I Dünya müharibəsi illərində<br>1917-1918-ci ilin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı<br>XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm<br>Azərbaycan deputatları Rusiya DövlətDumalarında<br>Cənubi Azərbaycan 1905-1911-ci illər İran inqilabı dövründə | [VIII fəsil, § 25-27 s.195-220];<br><br>[ IX fəsil, § 29, s. 220-222, ] |
| 10 | | **Mövzu 19.Azərbaycan Cümhuriyyətinin yaranması və ilk addımları (1918-1920) (FTN 5 )**<br>Cənubi Qafqaz Seyminin süqutu. Azərbaycan Cümhuriyyətinin yaradılması. İstiqlal bəyannaməsi<br>Batum konfransının Azərbaycan üçün nəticələri. Batum müqavilələri<br>1918-ci ilin iyun böhranı və nəticələri<br>Bakı XKS-nın Gəncəyə hücum planı və onun iflası<br>Bakı XKS-nin süqutu.“ Sentrokaspi” diktaturası<br>“Qafqaz İslam Ordusu”. Bakının azad edilməsi<br>**Mövzu 20. AXC-nin daxili və xarici siyasəti. (FTN 5 )**<br>Azərbaycanın beynəlxalq vəziyyəti. Aprel işğalı. AXC-nin süqutu. | [ X fəsil, § 231-32, s. 230-258, ] |
| 11 | | **Mövzu 21.Azərbaycan SSR XX əsrin 20-ci illərində(FTN 5 )**<br>1920-ci ilin aprel işğalı və Azərbaycanda sovet hakimiyyətinin qurulması. Sovet hakimiyyətinə qarşı müqavimət hərəkatı. Azərbaycanda həyata keçirilən birtərəfli sənayeləşdirmə və kollektivləşdirmə siyasəti, onun nəticələri.Formal müstəqilliyn ləğvi və respublikanınərazi bütövlüyünə qəsd. DQMV və | [XI fəsil, § 38-40 s.268-298]; |

| | | | |
|---|---|---|---|
| | | Naxçıvan MSSR-in yaranması<br>**Mövzu 22.Azərbaycan SSR XX əsrin 30-cu illərində(FTN 5 )**<br>Azərbaycanda sosialist yenidənqurmaları, onların sosial-iqtisadi və siyasi nəticələri. Kütləvi repressiyalar<br>Azərbaycanda SSR-də mədəni quruculuq | |
| 12 | | **Mövzu 23. Azərbaycan SSR II dünya müharibəsi dövründə (1939-1945-ci illər) (FTN 5 )**<br>II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycanadair planları<br>Azərbaycan döyüşçüləri döyüş cəbhələrində, antifaşist müqavimət və partizan hərəkatlarında<br>Faşizm üzərində qələbədə Bakı neftinin rolu<br>**Mövzu 24. Güney Azərbaycan II dünya müharibəsi dövründə (1939-1945-ci illər) (FTN 5 )** | [XI fəsil, § 38-40 s.268-298]; |
| 13 | | **Mövzu 25. Azərbaycan SSR 1945-1991-ci illərdə (FTN 5 )**<br>XX əsrin 40-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və siyasi əziyyəti<br>Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası<br>Azərbaycanda SSR XX əsrin 70-80-ciillərində.<br>"Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi<br>**Mövzu 26. Güney Azərbaycanı İkinci dünya müharibəsindən sonrakı dövrdə(FTN 5 )** | [XII fəsil , § 41-42 s.298-315]<br>[XIII fəsil, § 43-44, s.315-330]; |
| 14 | | **Mövzu 27. Azərbaycan Respublikasının müstəqilliyinin bərpası və dövlət quruculuğu (FTN 6)**<br>Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri<br>Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində<br>Milli qurtuluş. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı<br>Azərbaycan Respublikasının yeni neft strategiyası. "Əsrin müqaviləsinin" imzalanması<br>**Mövzu 28. Quiz (II)** | [XIV fəsil, §45 s.331-338] |
| 15 | | **Mövzu 29. Azərbaycan Respublikası XXI əsrin əvvəllərində (FTN 7)**<br>Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi. Azərbaycanda sosial-iqtisadi və mədəni dirçəliş.Azərbaycan intibahının yeni mərhələsi<br>Müstəqil Azərbaycan Respublikası dünyabirliyində<br>İkinci Qarabaq müharibəsi və nəticələri<br>**Mövzu 30. Prezentasiyaların təqdimatı** | [XIV fəsil, §45-46, s.338-344] |
| | | **FİNAL imtahan** (16-30-cu mövzular) | |

**"Azərbaycan tarixi" fənninə aid esse və prezentasiya mövzuları:**

İslama qədərki mədəniyyəti Azərbaycan
2. Orta Əsrlərdə Azərbaycanda incəsənət
3. Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri
4. Azərbaycanın qədim dinləri və yas adətləri

5. Azərbaycanda yazılmış ilk ümumdünya tarixi – “Cameüt-təvarix”
6. “Kitabı Dədəm Qorqud” tarixi abidəsi
7. Qarabağın Xristian Abidələri
8.Manna dövləti
9. Azərbaycan Midiya və Əhəməni ağalığı dövründə
10. Qədim Atropaten dövləti
11. Qədim Albaniya
12. Roma və Parfiya hücumlarına qarşı mübarizə
13. Azərbaycanın qədim cəmiyyətlərinin ictimai quruluşu
14. Azərbaycan uğrunda Bizans və Sasani dövlətlərinin mübarizəsi
15. Azərbaycanda Sasani ağalığına qarşı mübarizə. Məzdəkilər hərəkatı
16. Albaniyada xristianlığın yayılması və nəticələri
17. Azərbaycanda feodal münasibətlərinin yaranması və xüsusiyyətləri
18. Erkən orta əsrlərdə Azərbaycana türk axınları. Azərbaycanda etnik dəyişikliklər
19. III-VII əsrlərdə Azərbaycan mədəniyyəti
20. Azərbaycanda islamın yayılması və nəticələri
21. Azərbaycanın ərəblər tərəfindən işğalı
22. Azərbaycan uğrunda Ərəb-Xəzər müharibələri
23. Azərbaycanda ərəb ağalığına qarşı mübarizə. Xürrəmilər hərəkatı
24. Azərbaycanın feodal dövlətləri (IX əsrin II yarısı – XI əsrin ortaları)
25. Azərbaycan Səlcuq yürüşləri və ağalığı dövründə
26. Müsəlman intibahı və Azərbaycan
27. Azərbaycana monqolların ilk yürüşləri
28. Azərbaycanda Elxani dövlətinin ağalığı
29. Azərbaycana Əmir Teymurun və Toxtamış xanın yürüşləri
30. Azərbaycan feodal dövlətləri XV əsrdə
31. Azərbaycan Səfəvi dövlətinin yaranması
32. XVI əsrdənAzərbaycan uğrunda Səfəvi-Osmanlı müharibələri
33. Səfəvi-Osmanlı müharibələrinin son mərhələsi. Qəsri-Şirin sülhü
34. Azərbaycan XVII əsrin II yarısında
35. XVIII əsrin əvvəlində Azərbaycanda iqtisadi, ictimai və siyasi vəziyyət
36. I Pyotrun Xəzər yürüşü və onun nəticələri
37. XVIII əsrin 20-30-cu illərində Azərbaycanda Rusiyanın və Osmanlı dövlətinin möhkəmlənmək cəhdləri. Nadir şah
38. XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının qarşılıqlı əlaqələri
39. XVIII əsrin sonunda Azərbaycan uğrunda Rusiya və Qacarlar dövlətinin rəqabəti
40. Azərbaycanın Rusiya tərəfindən işğalının başlanması. Gülüstan sülhü
41. Azərbaycanın Rusiya tərəfindən işğalının ikinci mərhələsi. Türkmənçay sülhü
42. XIX əsrin I yarısında Azərbaycana ermən, rus və almanları köçürülməsi
43. XIX əsrin 40-cı illərində Qafqazda islahatlar
44. XIX əsrin 30-cu illərində hərbi-müstəmləkə rejiminə qarşı xalq çıxışları
45. XIX əsrin II yarısında Azərbaycanda burjua islahatları
46. XIX əsrin II yarısında Azərbaycanda sənayenin və nəqliyyatın inkişafı
47. XIX əsrin II yarısında Azərbaycanda kənd təsərrüfatında kapitalizmin inkişafı
48. XIX əsrdə Azərbaycan mədəniyyəti
49. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi təşkilatlar və partiyalar
50. XX əsrin əvvəlində Azərbaycanda çarizmin milli-müstəmləkəçilik siyasəti və milli hərəkat
51. Azərbaycan Birinci dünya müharibəsi dövründə
52. XX əsrin əvvəlində Azərbaycanda mədəniyyətin inkişafı
53. Azərbaycan 1917-ci il Fevral inqilabından sonrakı dövrdə
54. Azərbaycan 1917-ci ilin sonu- 1918-ci ilin ilk aylarında. Mart soyqırımı
55. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması
56. Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı. Sovet rejiminin qurulması
57. XX əsrin 20-30-cu illərində Azərbaycanda sənaye və kənd təsərrüfatında dəyişikliklər
58. XX əsrin 20-30-cu illərində Azərbaycanda mədəniyyət sahəsində dəyişikliklər
59. XX əsrin 30-cu illərində Azərbaycanda kütləvi repressiyalar
60. Azərbaycan İkinci dünya müharibəsi dövründə

61. XX əsrin 40-50-ci illərində Ermənistan SSR-dən azərbaycanlıların zorla köçürülməsi
62. Cənubi Azərbaycanda İkinci dünya müharibəsi dövründə milli-azadlıq mübarizəsi. S.C.Pişəvəri
63. XX əsrin 40-60-cı illərində Azərbaycanda ictimai-siyasi vəziyyət
64. XX əsrin 70-80-cı illərində Azərbaycanda ictimai-siyasi vəziyyət
65. Cənubi Azərbaycan 1946-2000-ci illərdə. Azərbaycanlıların İran inqilabında iştirakı
66. 1988-1991-cı illərdə azərbaycanlıların zorla Ermənistandan çıxarılması
67. XX əsrin 80-cı illərinin sonunda Azərbaycanda milli-azadlıq mübarizəsi
68. XX əsrin 40-90-cı illərində Azərbaycan mədəniyyətin inkişafı
69. SSRİ-nin dağılması və Azərbaycanda dövlət müstəqilliynin bərpası
70. XX əsrin 90-cı illərində Ermənistanın Azərbaycana hərbi təcavüzü
71. Heydər Əliyevin uğurlu neft strategiyası
72. Qarabağ münaqişəsinin həlli uğrunda mübarizə. Minsk qrupunu fəliyyəti
73. XX əsrin sonu-XXI əsrin əvvəlində Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı
74. İlham Əliyevin Azərbaycanı Qafqazın lider dövlətinə çevirməsi
75.İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar
76. Nadir şah və onun fəth etdiyi ərazilər.